*UOT 159.9*

***Aytən İlham qızı Alışanlı***
*fəlsəfə doktoru proqramı üzrə dissertant*
*Bakı Dövlət Universiteti*
https://orcid.org/0009-0000-0706-550X

# EMOSİONAL İNTELLEKT MODELLƏRİNİN FORMALAŞMASI VƏ İNKİŞAFI

***Айтен Ильхам гызы Алышанлы***
*диссертант по программе доктора философии*
*Бакинский Государственный Университет*

# ФОРМИРОВАНИЕ И РАЗВИТИЕ МОДЕЛЕЙ ЭМОЦИОНАЛЬНОГО ИНТЕЛЛЕКТА

***Aytan Ilham Alishanli***
*doctorial student in the program of doctor of philosophy*
*Baku State University*

# FORMATION AND DEVELOPMENT OF MODELS OF EMOTIONAL INTELLIGENCE

**Xülasə.** Elmi məqalədə emosional intellekt modellərinin formalaşma və inkişaf prosesinin əsas mərhələləri nəzərdən keçirilir. Mövcud modellərin (qabiliyyətlər və qarışıq) əsasında emosional intellekt anlayışına müxtəlif yanaşmaların spesifik cəhətləri təhlil olunur. Eyni zamanda, problemin gələcək tədqiqatlarında mütləq nəzərə alınmalı olan konsepsiyalar müəyyənləşdirilir.
***Açar sözlər:*** *emosiya, emosional intellekt, emosional intellekt modelləri, emosional intellekt komponentləri*

**Резюме.** В научной статье рассматриваются основные этапы процесса формирования и развития моделей эмоционального интеллекта. Анализируются особенности различных подходов к понятию эмоционального интеллекта на основе существующих моделей (способности и смешанная). При этом определяются понятия, которые необходимо учитывать при дальнейшем изучении проблемы.
***Ключевые слова:*** *эмоция, эмоциональный интеллект, модели эмоционального интеллекта, компоненты эмоционального интеллекта*

**Summary.** The main stages of the process of formation and development of emotional intelligence models are considered in the scientific article. Specific aspects of different approaches to the concept of emotional intelligence are analyzed on the basis of existing models (abilities and mixed). At the same time, the concepts that must be taken into account in future studies of the problem are defined.
***Key words:*** *emotion, emotional intelligence, models of emotional intelligence, components of emotional intelligence*

Müasir psixologiya elmində emosional intellekt anlayışı öz mahiyyətinə və nəzəri-praktik əhəmiyyətinə görə xüsusi yer tutur. Öz başlanğıcını psixologiyanın hələ fəlsəfi biliklər çərçivəsində inkişaf etdiyi antik dövrdən götürən, uzun bir zaman ərzində geniş polemikalara səbəb olan, ən müxtəlif yanaşmaların predmetinə çevrilən bir problem – koqnitiv və emosional-affektiv sferaların qarşılıqlı əlaqəsi müasir elmdə "emosional intellekt" adı altında formalaşıb.

Emosional intellekt termininin elmi dövriyyəyə daxil edilməsi tarixinə qısa bir nəzər salsaq, artıq psixologiyanın inkişafının ilkin mərhələsində intellektual sferanın diferensiasiyası, insan təfəkküründə emosional komponentlərin müəyyənləşdirilməsi faktları ilə rastlaşırıq. Sonrakı dövrdə H. Mayer "mühakimə edən"

təfəkkürlə emosional təfəkkürü, T. Ribo affektiv və intellektual təfəkkürü fərqləndirir. Bu baxımdan C. Mayerin Qərb psixologiyasında emosional intellektin öyrənilməsinə dair xarakteristikası maraq doğurur. Onun fikrincə, 1900-1969-cu illəri əhatə edən birinci mərhələdə emosiyaların öyrənilməsi əsasən intellektin tədqiqindən ayrı aparılsa da koqnitiv və affektiv proseslər arasında qarşılıqlı əlaqənin təhlilinə ilk cəhdlər edilib. 1970-1989-cu illəri əhatə edən ikinci mərhələdə koqnitiv və emosional proseslərin qarşılıqlı təsiri diqqət mərkəzində olub. H. Qardnerin şəxsiyyətdaxili intellekti "öz emosional həyatını qiymətləndirmək", "öz hiss və emosiyalarını sistemləşdirmək" bacarığı kimi xarakterizə etməsi buna misal ola bilər. C. Mayer 1990-1993-cü illəri emosional intellektin psixoloji tədqiqatların predmetinə çevrildiyi, 1994-1997-ci illəri emosional intellektin populyarlaşdırıldığı (əksər hallarda qeyri-elmi yanaşmalarda) dövrlər kimi qiymətləndirir. 1998-ci ildən bu günə kimi davam edən mərhələni isə "emosional intellektin mahiyyətinin aydınlaşdırılması" kimi xarakterizə edir.

Emosional və koqnitiv proseslərin qarşılıqlı əlaqəsi mexanizmlərinin tam və əsaslı şəkildə üzə çıxarılmasında, "emosional intellekt nədir?" sualına dəqiq və birmənalı cavab verilməsində emosional intellektin strukturu, tərkib hissələri barədə aydın elmi təsəvvürün olması xüsusi əhəmiyyət kəsb edir. Ötən əsrin sonlarından başlayaraq emosional intellektin modelləşdirilməsi ilə bağlı məqsədyönlü tədqiqatlar, Eİ (emosional intellekt) səviyyəsinin ölçülməsinə dair işlənib hazırlanan çoxsaylı metodikalar məhz bu məqsədə xidmət edir.

Müasir dövrdə emosional intellektin dərk olunması və nəzəri-praktiki əhəmiyyəti, həyatın müxtəlif sahələrində effektiv tətbiqi barədə daha dolğun təsəvvürə malik olmaq üçün emosional intellekt modellərinin formalaşması və inkişafı prosesinin təhlili xüsusi əhəmiyyət kəsb edir.

XX əsrin sonlarından emosional intellekt anlayışı ilə bağlı aparılan ardıcıl tədqiqatlar üç fərqli məktəbin (D. Qoulmenin məktəbi, C. Mayer və P. Saloveyin məktəbi, R. Bar-On məktəbi) və iki əsas modelin (qabiliyyətlər modeli və qarışıq model) formalaşması ilə nəticələnib. Bu prosesdə ilk mənbələrdən biri C. Mayer və P. Salovey tərəfindən 1990-cı illərdə yazılan məqalələr hesab olunur. Bu məqalələrdə emosional sahə ilə bağlı təsəvvürlər sistemləşdirilib, "emosional intellekt" anlayışı ilk dəfə geniş məzmunda əsaslandırılıb və göstərilib ki, emosional intellekt özünün və digərlərinin emosiyalarının dərk olunmasına kömək edən mental bacarıqlar toplusudur. [1, s.28]

Müəlliflər ilkin olaraq emosional intellektin strukturuna üç komponent daxil etmişdilər. Lakin 1997-ci ildə bu struktura emosiyalar barədə informasiyaların təhlili ilə bağlı olan komponent əlavə etdilər. Nəticədə emosional intellektin dörd qrup qabiliyyətlərdən ibarət modelini yaratdılar:

1) emosiyaları qavrama, dəyərləndirmə və ifadə etmə (öz emosiyalarının fiziki vəziyyətə, hisslərə və fikirlərə görə yaranmasını anlaya bilmək, öz emosiyalarını ifadə edə bilmək; ətrafdakıların emosiyalarını anlaya bilmək; emosiyaların ifadəsindəki müxtəlifliyi fərqləndirə bilmək);

2) emosiyalardan istifadə edə bilmək (müəyyən emosiyaları yaratmaq və onların meydana gəlməsinə nəzarət edə bilmək; diqqətin mühüm informasiya və ya hadisəyə yönəlməsi üçün emosiyalardan istifadə edə bilmək);

3) emosiyaları anlama (emosiyalar arasındakı qarşılıqlı əlaqəni başa düşmək, emosional keçidləri anlamaq, emosiyaları və onların yaranma səbəblərini şərh etmək, sözlər və emosiyalar arasındakı əlaqəni identifikləşdirmək);

4) emosiyaların tənzimlənməsi (emosiyaları refleksiv tənzimləmək, mənfi emosiyaların intensivliyini azaltmaq, müsbət emosiyaların təsirini artırmaq, emosiya yüklü problemlərin öhdəsindən gələ bilmək).

C. Mayer və P. Saloveyin nəzəriyyəsinə görə, bu komponentlər iyerarxik şəkildə düzülür və səviyyələri ardıcıl şəkildə qavranılır. Komponentlərdən hər biri iki tərəfə yönəlir: insanın özünə və ətrafdakılara. Şəxsiyyətdaxili Eİ insanın öz fikirləri, hərəkətləri və hissləri arasında qarşılıqlı əlaqə qurmaq bacarığı deməkdir. Şəxsiyyətlərarası Eİ isə digər insanlara uyğunlaşmağa, onları bu və ya digər fəaliyyətə ilhamlandırmağa, öz qarşılıqlı əlaqələrini müəyyənləşdirməyə, ətrafdakılarla ünsiyyəti asanlaşdırmağa kömək edir.

C. Mayer və P. Saloveyin qabiliyyətlər modelində dörd qrupda birləşən bacarıqların iyerarxik təşkili müəyyən arqumentlərə əsasla-

nır. Məsələn, emosiyaları qavramaq və ifadə etmək qabiliyyəti (1-ci qrup) konkret məsələlərin həlli məqsədilə emosiyalardan istifadə olunmasında (2-ci qrup) zəruri əsasdır. Bu iki bacarıq isə emosiyaları anlamaq qabiliyyətinin (3-cü qrup) əsasını təşkil edir. Sonda bütün bu bacarıqlar emosiyaların tənzimlənməsi (4-cü qrup) üçün vacibdir.

C. Mayer və P. Saloveyin emosional intellekt nəzəriyyəsinin prinsipləri empatiya, məlumatlılıq, tarazlıq, məsuliyyət kimi anlayışlara əsaslanır. Empatiya emosiyaların dərk olunmasında və ifadə edilməsində, öz duyğularını digər insanın hissləri ilə eyniləşdirməkdə, həssaslıqda üzə çıxır. Emosional tarazlığı saxlamaq üçün öz hissləri barədə məlumatlı olmaq, səmərəli və səmərəsiz hissləri fərqləndirməyi bacarmaq vacibdir**.** Məsuliyyət Eİ-nin yüksək səviyyəsinə malik insanda özünün və digərlərinin rifahına cavabdehlik yaradır. C. Mayer və P. Salovey hesab edirdilər ki, "İnsan təfəkkürü rasional hesablama ilə məhdudlaşmır. Emosiyalar və intellektin qarşılıqlı əlaqələrinin çox müxtəlif olmasına baxmayaraq, onlardan yalnız bir neçəsi bizi həqiqətən də ağıllı edir. Bu qarşılıqlı kəsişmə və təsirin kifayət qədər məhdud sahəsini emosional intellekt kimi müəyyənləşdirmək olar." [8]

1999-cu ildə C. Mayer və P. Saloveyin emosional intellektlə bağlı araşdırmalarına D. Karuzo da qoşuldu və nəticədə onlar MSCEIT (the Mayer-Salovey-Caruso Emotional Intelligence Test) testini yaratdılar. Özündə sorğuları və qrafik tapşırıqları birləşdirən bu testin çoxsaylı tədqiqatlarda istifadəsi sayəsində müəyyən olunub ki, emosional intellekt insanın psixi və fiziki sağlamlığının qorunmasına təsir göstərir, adaptasiya və stressdən müdafiə funksiyalarını yerinə yetirir, sosialyönlü davranışın ilkin şərti olur və şəxsiyyətlərarası münasibətləri optimallaşdırır.

Müasir psixologiyada emosional intellekt anlayışının strukturlaşdırılması ilə bağlı tədqiqatların böyük bir qismi qarışıq modellərin yaranması ilə nəticələnib. Qarışıq modellər koqnitiv, şəxsiyyət və motivasiya xüsusiyyətlərini ehtiva edir. Bunun sayəsində onlar real həyata adaptasiya və problemlərin öhdəsindən gəlmə prosesləri ilə sıx bağlanmış olur. Eİ-nin qarışıq modelləri müxtəlifliyi ilə seçilir və əsasən bir-birindən onlara daxil edilən şəxsiyyət xarakteristikaları ilə fərqlənir. Bacarıqlar modeli Eİ-ni düzgün və yanlış cavabları olan tapşırıqlardan ibarət testlərin köməyi ilə ölçülən bacarıqların cəmi kimi müəyyən edirsə, qarışıq modellər Eİ-ni özünəhesabata əsaslanan sorğuların köməyi ilə ölçməyi nəzərdə tutur.

Eİ-nin qarışıq modelləri sırasında D. Qoulmenin konsepsiyası xüsusi yer tutur. Emosional intellekt anlayışına yanaşmada yeni bir məktəbin əsasını qoyan D. Qoulmenin nəzəri görüşləri 1980-ci illərin ortalarından başlayaraq çap olunan məqalələrində və geniş populyarlıq qazanan "Emosional intellekt" (1995) kitabında öz əksini tapıb. D. Qoulmenə görə, sosial intellekt strukturuna daxil olan Eİ "insanın əldə olunan informasiyadan şəxsi məqsədlərinin reallaşdırılmasında istifadə etmək üçün özünün və başqalarının emosiyalarını şərh etmək bacarığıdır". [2, s.110] D. Qoulmenə görə, Eİ-nin strukturu müxtəlif keyfiyyətli və hətta müxtəlif istiqamətli parametrlərinin toplusunu ehtiva edir: öz emosiyalarını, öz davranışının məqsəd və vəzifələrini anlamaq; öz emosiyalarını və davranışını tənzimləmək və digər insanların davranışına təsir göstərmək bacarıqları.

C. Mayer və P. Saloveyin tədqiqatlarını daha da genişləndirən D. Qoulmen onların müəyyənləşdirdiyi komponentlərə entuziazm, inadkarlıq və sosial vərdişləri əlavə etdi. Bununla da o, Mayer və Saloveyin modelinə daxil olan koqnitiv bacarıqları şəxsiyyət xarakteristikaları ilə birləşdirdi.

D. Qoulmen ilkin olaraq emosional intellektin strukturunu beş tərkib hissəsinə ayırıb:

- emosional vəziyyətlərin dərki və adlandırılması, emosiyalar, təfəkkür və hərəkət arasında qarşılıqlı əlaqənin dərk olunması;
- emosional vəziyyətlərin idarə olunması – emosiyalara nəzarət və arzuolunmaz emosional vəziyyətin adekvat olanla əvəz edilməsi;
- özünü təhriketmə (motivasiya), uğur qazanmağa kömək edən emosional vəziyyətə daxil olma;
- digər insanların emosiyalarını anlamaq, onlara qarşı həssas olmaq və onların emosiyalarını idarə etmək;
- digər insanlarla şəxsiyyətlərarası münasibətlərə girmək və onlara dəstək olmaq

Qoulmenin emosional intellekt strukturu iyerarxikdir. Belə ki, emosiyaları anlamaq onları

idarə edə bilmək üçün ilkin şərtdir. Eyni zamanda emosiyaları idarə etməyin aspektlərindən biri uğura aparan emosional vəziyyətləri yaratmaq bacarığıdır. Bu bacarıqlar digər insanlara yönələndə yaxşı münasibətlər saxlamağı şərtləndirir.

Tədqiqatçı sonradan bu strukturu təkmilləşdirib. Hazırda Qoulmenin Eİ modelinə dörd komponent: özünü anlama, özünə nəzarət, sosial həssaslıq, qarşılıqlı münasibətlərin idarə olunması və onlarla bağlı olan 18 vərdiş daxildir.

Şübhəsiz ki, insanları həyatda uğur qazanmağa, şəxsi keyfiyyətlərini inkişaf etdirməyə stimullaşdırmaq Qoulmenin və ardıcıllarının nailiyyəti sayıla bilər. Lakin sırf elmi nöqteyi-nəzərdən yanaşanda Qoulmenin müəyyən etdiyi struktur komponentləri sırasında təkcə emosional bacarıqları yox, iradi keyfiyyətləri, özünü anlama xarakteristikasını, sosial bacarıq və vərdişləri tapmaq olar.

Müasir psixologiyada emosional intellekt anlayışına yanaşmalar sırasında tanınmış psixoloq R. Bar-Onun modeli yeni baxış bucağına və təhlil prinsiplərinə görə özünəməxsus yer tutur. R. Bar-On 1985-ci ildə ilk dəfə ənənəvi “psixometrik intellekt” terminінə alternativ olaraq “emosional əmsal” terminini işlədib. 1988-ci ildə R. Bar-On emosional-sosial intellekt anlayışını irəli sürərək, onun insanın davranışını müəyyən edən çoxlu sayda həm şəxsi, həm də şəxsiyyətlərarası bacarıq və vərdişlərdən ibarət olduğunu göstərdi. Onun fikrincə, Eİ “ətrafda olanların tələb və təzyiqlərinin öhdəsindən gəlmək bacarığına təsir göstərən qeyri-koqnitiv bacarıq və vərdişlərin toplusudur”. [7]

Bar-Onun Eİ-nin nəzəriyyə və praktikasına mühüm töhfəsi 1996-cı ildə EQ-in (Emotional Quotient İnventory –EQ-i) ölçülməsi üçün yaratdığı sorğudur. Bu sorğuda emosional intellektin beş əsas komponenti təqdim olunur:

1. Şəxsiyyətdaxili – emosiyalar barədə bilik, emosiyaları anlamaq və ifadə etmək bacarığı (assertivlik, emosional özünütəhlil, müstəqillik, özünəhörmət, özünüaktuallaşdırma);

2. Şəxsiyyətlərarası münasibətlər – digər insanların hisslərini anlamaq və qəbul etmək bacarığı (empatiya, sosial məsuliyyət, şəxsiyyətlərarası münasibət);

3. Adaptivlik – hissləri, fikirləri və davranışı dəyişən şəraitə uyğunlaşdırmaq, həmçinin bu dəyişiklikləri idarə etmək bacarığı (problemləri həll etmək bacarığı, gerçəkliyin qiymətləndirilməsi, çeviklik);

4. Stressi tənzimləmək (stressə tolerantlıq, impulsivliyə nəzarət);

5. Ümumi əhval (həyatdan məmnunluq, optimizm).

R. Bar-Onun yanaşması Eİ insanın real həyata adaptasiyasına kömək etməlidir ideyasına əsaslanır. Beləliklə, deyə bilərik ki, qarışıq model tərəfdarlarının emosional intellektə yanaşması ona təkcə xalis koqnitiv bacarıq kimi yox, şəxsiyyət xarakteristikası kimi də baxmağa imkan verir, fərdiyyət strukturunda onun yeri barədə düşünməyə vadar edir.

Postsovet ölkələrində, o cümlədən Rusiya psixologiyasında emosional intellektlə bağlı aparılan tədqiqatlar müəyyən özünəməxsus keyfiyyətlərinə baxmayaraq bütövlükdə Qərbdə formalaşan nəzəriyyələrin güclü təsiri altındadır. Rusiyalı tədqiqatçı D.V. Lyusin emosional intellekti özünün və digər insanların emosiyalarını anlamaq və onları idarə etmək bacarığı kimi təqdim edir. Lyusin emosional intellektin koqnitiv bacarıq kimi şərhinin əleyhinə çıxış edir. Onun fikrincə, emosiyaların başa düşülməsi və idarə olunması şəxsiyyətin emosional sferaya ümumi istiqamətlənməsi ilə (insanların daxili dünyasına maraq, davranışın psixoloji təhlilinə meyl) sıx bağlıdır. Buna uyğun olaraq, D.V. Lyusin emosional intellekti ikili təbiətə malik quruluş kimi təsəvvür edir. M.A. Manoylovanın modelində emosional intellekt “insanın özünün və başqalarının emosional vəziyyətlərini və hisslərini anlaması, qəbul etməsi və tənzimləməsi bacarığıdır”. [6, s.17] Manoylova hesab edir ki, Eİ özündə intellekti, emosiyanı və iradəni birləşdirən inteqrativ anlayışdır. E.L. Nosenko və N.V. Kovriqin modelində “Böyük beşliyin” (P. Kosta, R. Mak-Qrey, L. Qoldberq və b. yaratdığı 5 amilli model) tərkib hissələri olan vicdan, yeni təcrübəyə açıqlıq, emosional dözümlülük, səmimilik və ekstraversiya emosional intellektin xüsusiyyətləri kimi irəli sürülür. Beləliklə, Eİ-yə həm bacarıqlar, həm də həyatda uğur qazanmağa yardımçı olan şəxsiyyət xarakteristikaları daxil edilir. Bütövlükdə bu modelləri də emosional intellektin qarışıq konsepsiyalarına aid etmək olar.

Beləliklə, emosional intellekt modellərinin formalaşması, inkişafı prosesinə və onların təs-

nifatına qısa bir nəzər salsaq, bir tərəfdə Mayer, Salovey və D.Karuzonun bacarıqlar modelini, digər tərəfdə xeyli sayda qarışıq modelləri (Qoulman, Bar-On, R.Kuperin modelləri) görmüş olarıq. Qeyd etmək lazımdır ki, qarışıq modellərin, Eİ səviyyəsini ölçmə metodikalarının çoxluğuna tədqiqatçıların münasibəti ziddiyyətlidir. Belə bir vəziyyəti "böhran" adlandıranlarla bərabər, emosional intellektin nəzəriyyə və praktikasının gələcək inkişafı üçün zəmin hesab edənlər də var. Bizim fikrimizcə, ikinci yanaşmanın tərəfdarları daha rasional mövqedə dayanırlar. Emosional intellekt psixologiyada nisbətən yeni anlayış olduğu üçün həm nəzəri, həm də praktik baxımdan təkmilləşməyə böyük ehtiyac duyur.

Mövcud ədəbiyyatın təhlili əsasında belə nəticəyə gəlmək olar ki, öz mahiyyəti və mürəkkəbliyi ilə seçilən emosional intellekt müasir psixologiyanın diqqət mərkəzində olan əsas və mühüm anlayışlardan biridir. Emosional intellektin strukturlaşdırılması sahəsinə yanaşmalar, yaradılan çoxsaylı modellər bütün fərqliliklərə və ziddiyyətlərə baxmayaraq, Eİ-nin ümumi nəzəri konsepsiyasının hazırlanması, gələcək inkişaf istiqamətlərinin müəyyən edilməsi üçün əsaslı zəmindir.

**Problemin aktuallığı.** Psixologiya elminin inkişafının ilkin mərhələsindən bu günə qədər emosional intellekt anlayışının mahiyyətinin aydınlaşdırılması bilavasitə onun strukturlaşdırılmasından, onu təşkil edən komponentlərin müəyyən edilməsindən asılı olmuşdur. Emosional intellekt modellərinin çoxluğu və elmi yanaşmaların müxtəlifliyi səbəbindən müasir psixologiyada bu problem öz aktuallığını qoruyub saxlayır.

**Problemin elmi yeniliyi.** Məqalədə emosional intellekt modellərinin formalaşma prosesinin, bu sahədə yeni inkişaf meyllərinin sistemli təhlili aparılmış, müvafiq nəticələr əldə olunmuşdur.

**Problemin praktik əhəmiyyəti.** Müasir psixologiyada emosional intellekt anlayışının yeri və rolunu müəyyənləşdirmək baxımından onun modellərinin formalaşma və inkişaf prosesi barədə ətraflı təsəvvürə malik olmaq vacibdir. Məqalədən ali məktəb müəllimləri, tələbə və magistrlər istifadə edə bilər.

**Ədəbiyyat:**


1. Андреева, И.Н. Азбука эмоционального интеллекта / И.Н. Андреева. – СПб.: БХВ-Петербург, – 2012. –288 с.
2. Гоулман, Д. Эмоциональное лидерство. Искусство управления людьми на основе эмоционального интеллекта / Д Бизнес Букс, –2005. – . 304 с.
3. Гоулман Д. Эмоциональный интеллект. -М: АСТ Москва, – 2009. – 478 с.
4. Карпов, А.В., Петровская. Психология эмоционального интеллекта: теория, диагностика, практика: монография / А.В. Карпов, А.С. Петровская; Яросл. гос. ун-т. – Ярославль : ЯрГУ, – 2008. – 344 с.
5. Люсин, Д.В.Социальный и эмоциональный интеллект: от моделей к измерениям / Д.В. Люсин, Д.В. Ушаков. – М.: Институт психологии РАН, –2009. – 347 с.
6. Манойлова, М.А. Развитие эмоционального интеллекта будущих педагогов / М.А. Манойлова. – Псков: ПГПИ, –2004. – 60 с.
7. Bar-On, R. Emotional and social intelligence: Insights from the Emotional Quotient Inventory / R. Bar-On // R. Bar-On. J.D.A. Parker. Handbook of emotional intelligence. – San Francisco: Jossey-Bass, –2000. – P. 363–388.
8. Mayer, J.D. The intelligence of emotional intelligence/ J.D. Mayer, P. Salovey // Intelligence. – 1993. – V. 17.
9. Mayer, J. Emotional Intelligence: Theory, Findings and Implications / J. Mayer, P. Salovey, D. Caruso // Psychological Inquiry, 2004. – V. 15, № 3. – P. 197–215.


**E-mail:** alishanli.aytan.ilham@bsu.edu.az

**Rəyçilər:** *psixol.ü.fəls.dok.,dos.* **S.N. Əliyeva,**
*psixol.ü.fəls.dok.,dos.* **A.F. Səməndərova**
**Redaksiyaya daxil olub:** 17.05.2023